# XOCALI ARXEOLOJİ ABİDƏLƏR KOMPLEKSLƏRİ: I QRUP KURQANLAR

**Hidayət F.Cəfərov**
Azərbaycan Dövlət İqtisad Universiteti(UNEC)
hidayet-jafar@mail.ru

**Açar sözlər: Azərbaycan, Qarabağ, Xocalı, arxeologiya, kurqanlar, daş qutular, keramika, tunc, xronologiya**

**1. Xocalı abidələri haqqında ümumi məlumat.** Xocalı-Gədəbəy mədəniyyətinə mənsub olan qədim etnik-mədəni massivin tarixinin öyrənilməsində Xocalı abidələrinin müstəsna əhəmiyyəti var. Qafqazda Xocalı kompleksi qədər müxtəlif tip abidələr qrupunun bir yerdə toplusuna təsadüf olunmamışdır. Burada təkcə kurqanların beş tipinin varlığı müəyyənləşdirilmişdir. Bundan başqa Xocalı kompleksi öz tərkibində daş qutuları, menqir, labirinti xatırladan daş hasar (Haça-təpə kurqanı rayonunda) və s. birləşdirir. Maraqlıdır ki, çoxsaylı arxeoloji abidələr yalnız bir tarixi dövrü – e.ə. XIV-VIII əsrlərə aid son tunc və ilk dəmir dövrünü əks etdirir.

Burada E.Reslerdən tutmuş (1, səh. 147; 2, səh. 78, 171; 3, səh. 424; 4, səh. 17; 5, səh. 49; 6, səh. 106; 7, səh. 97, 8, vərəq. 22; 9, vərəq. 49) və sonrakı dövrlərə qədər vaxtaşırı davam etdirilən arxeoloji qazıntılar (10, səh. 148-151; 11, səh. 217-232; 12, səh. 15-26; 13; 14, səh. 386; 15, səh. 418) gedişində çoxsaylı abidələr tədqiq olunmuş, onların tarixi dövrləşməsi, tipoloji xüsusiyyətləri,qədim Azərbaycan tayfalarının həyatının müxtəlif sahələri ilə bağlı elmi nəticələr çıxarılmışdır.

Xocalı abidələri içərisində kurqanlar xüsusi yer tutur. Kurqan qruplarına İ.Meşşaninovun tipoloji əlamətləri nəzərə alınmaqla haqlı olaraq doğru adlandırdığı "böyük kurqan çölündə" və Qarqarçayın sol sahilindəki "daşlı çöldə" daha çox təsadüf olunur. "Böyük kurqan çölü" qrupu qərbdə iki böyük menqir və labirintvari daş hasarla qonşuluqda yerləşən möhtəşəm Haça təpə kurqanı ilə məhdudlaşır. Kiçik kurqanlar qrupu əksər halda Xocalı çayının sol sahilində, ona tökülən İlisu çayı sahilində yerləşmişdir. Daş qutulara qeyd olunan sahələrin hər üçündə, habelə Xocalı kəndindən şimalda, "Boz dağın" ətəyində təsadüf edilmişdir.

Hələ XIX əsrin 90-cı illərində Xocali nekropolunda ilk arxeoloji qazıntılar aparmış E.Resler buradakı abidələr kompleksinin situativ planını çəkmiş, XX əsrin 20-ci illərində isə C.Aleksandrviç-Nəsifi Xocalı abidələrinin instrumental planını işləmiş, məlum abidələrin koordinatlarını dəqiqləşdirmişdir (16, səh. 169-174, plan) (tablo 1).

Bütün bunlar, şübhəsiz Xocalı abidələri haqqında məlumat əldə etməyə imkan verən faktlardır. Təkcə onu qeyd etmək kifayətdir ki, vaxtilə E.Reslerin təklif etdiyi 5 kurqan qrupu tipologiyası sonrakı illərdə də əsasən öz əhəmiyyətini itirməmişdir.

Xocalı abidələri kompleksinə daxil olan qəbir abidələrinin müqayisəli təhlilinə keçməzdən əvvəl burada aşkar olunmuş və bir çox xüsusiyyətləri ilə özünə analoq bilməyən müəmmalı tikili haqqında məlumat verməyi lazım bilirik. Söhbət Haça-təpə kurqanı yaxınlığında yerləşən labirintvari tikili qalığından gedir. Sahəsi 9 hektara yaxın olan bu tikili Xocalı çayının sağ sahilində, "Qaladibi" Xocalısının şərqində yerləşir. XX əsrin 70-ci illərində onun şimal-şərqində Xocalı aeroportu salınıb. Tikili nəhəng hasarı xatırladır. Onun özül hissəsi çal-çarpaz düzülmüş yastı daşlardan, divarı hər iki üzdən enli sal daşlardan hörülmüş, onların arası isə kiçik daş parçaları ilə doldurulmuşdur. Hörgü işində birləşdirici məhluldan istifadə edilməmişdir. Hasar divarının eni 4 m-ə çatır.

Göstərilən divarın qalığı bir çox əlamətləri ilə Zaqafqaziyanın, o cümlədən Azərbaycanın dağlıq rayonlarında son tunc və ilk dəmir dövründə geniş yayılmış "siklop tikililərini" xatırlatsa da həmin abidələrdən fərqlənir. Tikilinin daxilində, onun qərb hissəsində, müxtəlif ölçülü, biri-digərindən arakəsmələrlə ayrılan tikili qalıqları cəmləşmişdir. Cənub-qərbdən bu nəhəng tikiliyə giriş yolu var. Giriş yolu dəhliz tipli olub uzunu 40-45 m, eni 6 m-dir. Tikilinin divarının hündürlüyü 1 m-dən 1,5-2 m-ə qədər saxlanmışdır (14, səh. 172; 15, səh-418). Maraqlıdır ki, bu böyük və mürəkkəb quruluşlu tikilidən kənarda bu tip divar qalıqlarına təsadüf edilməmişdir. Həm XX əsrin 50-ci illərində K.X.Kuşnaryeva, həm də 1984-cü ildə H.F.Cəfərov tərəfindən aparılmış yoxlama qazıntıları burada yaşayışla bağlı mədəni təbəqənin olmamasını göstərmişdi.

Haqqında danışılan nəhəng tikilinin (daha doğrusu hasarın) nə məqsəd daşıması məsələsinin həllində onun yaşayış məskəni olması gümanı, yuxarıda deyilən səbəbdən şübhə doğurur. Hasarın siklop tikilisi sıralarına daxil olunması da bir neçə səbəb üzündən qəbul edilə bilmir. Əvvəla, "siklop tikililəri" bir qayda olaraq uca dağlıq rayonlarda, təpə və dağın üstündə yerləşmişdir; ikincisi "siklop tikililəri" sahəcə çox kiçik olub, təhlükəli vaxtlarda qismən yaşamaq, sığınmaq məqsədi ilə istifadə olunmuşdur.

Xocalı labirint –hasarı isə düz yerdədir (indi onun şərqində Xocalı aeroportu yerləşir. Ermənilər bunu hərbi məqsədlər üçün istifadə etməyə çalışır). Labirint-hasarın sahəsi çox böyükdür, kənarında daş qutulara və torpaq kurqana təsadüf edilir, şərqində nəhəng Haça-təpə kurqanı və qoşa menqir (dik daşlar) yerləşir. Hasarın içərisində labirinti xatırladan tikililər mövcuddur. Bütün bunlar təsvir edilən nəhəng ölçülü tikilinin ibtidai dini ayinləri icra etmək üçün ibadət yeri olmasını söyləməyə imkan verir. Digər tərəfdən həmin

tikilinin, məsələn, hərbi hücumlardan müdafiə olunma kimi sığınacaq məqsədilə istifadə ehtimalı da qəbul oluna bilər. Deyəsən, axırıncı fikir daha ağıla batandır.

Təəssüf ki, 1960-1980-ci illərdə burada məişət və təsərrüfat işləri zamanı bu nadir abidənin çox hissəsi dağıdılmışdır. İndi isə, erməni hərbi təcavüzündən sonra onun taleyi çox qaranlıq qalıb.

**2. Xocalı kurqanlarının tipləri.** Yuxarıda qeyd olunduğu kimi vaxtilə Xocalıda beş kurqan tipinin (qrupunun) varlığı müəyyən edilmişdir (1, səh. 16-17; 11, səh. 219-220; 17, səh. 18) və bu bölgü çox vaxt əsas kimi qəbul olunmuşdur.

1. Böyük ölçülü, torpaqdan tökülmüş konusvari quruluşlu, zirvəsinin şərq hissəsində daş tökülmüş kurqanlar;
2. Böyük ölçülü, torpaqdan tökülmüş, zirvəsindəki çökəyə daş tökülmüş kurqanlar;
3. 2-ci tiplə eyni olan, lakin çökəyinə daş tökülməmiş kurqanlar;
4. Kiçik ölçülü, konusvari örtüyü yastılanmış torpaq kurqanları;
5. Çay daşlarından ucaldılmış, böyük ölçülü kurqanlar.

Əslində isə kurqanların xarici görünüşü onları üç tipə və ya qrupa bölməyə imkan verir (18, səh.109-120).

1. kiçik ölçülü torpaq kurqanlar;
2. böyük ölçülü torpaq kurqanlar;
3. daş örtüklü böyük kurqanlar.

Xronoloji baxımdan kiçik ölçülü torpaq kurqanlar daha qədimdir; dövr etibarilə ikinci yerdə böyük ölçülü torpaq kurqanlar, üçüncü yerdə isə daş örtüklü kurqanlar durur.

Kurqanların dövrləşməsi təkcə burada tapılan arxeoloji materiallarla deyil, habelə kurqanların özünün biri-digərinə nisbətdə yerləşməsi ilə də müəyyən olunur. Belə ki, bəzi hallarda böyük ölçülü torpaq kurqanlarının ətəyini kiçik torpaq kurqanları örtmüş, daş örtüklü kurqanlar isə öz növbəsində böyük torpaq kurqanlarının ətəyini bağlamışdır.

Bütövlükdə, müxtəlif illərdə Xocalıda 40-dan yuxarı qəbir abidəsi qazılmışdır. 1894-1897-ci illərdə E.Resler tərəfindən 21 kurqan, 4 daş qutu qazılıb öyrənilmişdir. A.İvanovski 1896-cı ildə 4 daş qutu qəbiri açmışdır. 1926-cı ildə İ.İ.Meşşaninovun başçılıq etdiyi ekspedisiya burada 2 kurqan (biri kiçik torpaq, başqası daş örtüklü) və 3 daş qutu qəbiri öyrənmişdir. K.X.Kuşnaryeva 1954-cü ildə burada 2 ədəd kiçik torpaq kurqan qazmış, habelə dağılmış 7 abidədə təmizləmə işi aparmışdır. Y.Hümmel 1939-cu ildə burada bir kurqan və bir daş qutu qəbiri açmış, nəhayət, 1984-cü ildə H.F.Cəfərov burada 19 daş qutu qəbiri qazmışdır (19, səh. 84).

Beləliklə, Xocalı nekropolu kompleksində arxeoloji qazıntı işləri aparılmış qəbir abidələrini aşağıdakı kimi dörd tipə (və ya qrupa) ayırmaq

olar:

1. kiçik ölçülü torpaq kurqanlar;
2. böyük ölçülü torpaq kurqanlar;
3. böyük ölçülü daş örtüklü kurqanlar;
4. daş qutu qəbirlər.

*3.* **Xocalının birinci qrup abidələri** *(Kiçik ölçülü torpaq kurqanlar).*

Bu tip kurqanlara həm əsas "kurqan çölündə", həm "valun çölündə" (daşlı çöl), həm də İlisu çayının sol sahilində təsadüf edilmişdir. Onlardan üçünü E.Resler, bir ədədini İ.Cəfərzadə, dördünü K.Kuşnaryeva qazıb öyrənmişdir. Xocalı nekropolunun xronoloji dövrləşməsində bu tip kurqanlar ilkin pillədə durur.

E.Reslerin qazdığı torpaq kurqanlardan yalnız 5 saylı kurqanda azacıq avadanlığa təsadüf olunmuşdur. Sıralanmalar hər bir müəllifin təyinatına uyğun saxlanılmışdır (H.Cəfərov).

***5 saylı kurqan*** Xocalı çayının sağ sahilindəki əsas kurqan çölündə, 1 saylı böyük torpaq kurqanının yaxınlığında yerləşmişdir. Aşağı hissədə azacıq daş yığını olan torpaq örtüyün diametri 13 m, hündürlüyü 1,2 m olmuşdur. Örtük altında, 1 m dərinlikdə bir ölü qalığına, it sümüklərinə, keramika sınıqları və əqiq muncuqlara təsadüf olunmuşdur (8, l. 29; 9, l. 19; 4, səh. 17).

14 saylı kurqan Qarqarçayın sol sahilində daş örtüklü 11 və 12 saylı kurqanların arasında yerləşmişdir. Örtüyü əsasən torpaq və qumdan, qismən daşlardan qurulmuşdur. Diametri 17 m, hündürlüyü 3,3 m olan kurqan örtüyü altında arxası üstə uzadılmış vəziyyətdə ölü dəfn olunmuşdur. Arxeoloji materiala rast gəlinməmişdir (5, səh. 51).

**16 saylı kurqan** Xocalı kurqan çölünün cənubunda, əkin sahələri arasında yerləşmişdir. Diametri 20 m, hündürlüyü 3 m olan örtük altında, 1,7 m dərinlikdə qum qatı arasında arxası üstə, uzadılmış vəziyyətdə ölü dəfn olunmuşdur. Heç bir materiala təsadüf olunmamışdır (5, səh. 50).

**İ.M.Cəfərzadənin qazdığı 5 saylı kurqan** əsas kurqan çölündə, böyük ölçülü kurqanın ətəyində yerləşmişdir (11, səh.224; 20, səh. 18-24).

Diametri 10 m, hündürlüyü 1 m olan kurqanın ətəyi bir cərgə çay daşı ilə əhatələnmişdir. Kurqan örtüyü altında, onun şərq hissəsində üzəri iki qat ağac tirlərlə örtülmüş torpaq qəbiri (4 x 1,85 x 1,5 m) aşkar olunmuşdur. Qəbir kamerasına dolmuş çay daşlarının ağırlığından insan skeleti qalıqları ilkin quruluşunu dəyişmiş, buna görə də onun ilkin vəziyyətini anlamaq mümkün olmamışdır. Qəbir avadanlığı, bərpası mümkün olmuş yeddi saxsı qabdan, tunc sancaqdan, dəvəgözü və çaxmaqdaşından hazırlanmış ox ucluqlarından və əqiq muncuqlardan ibarət olmuşdur. Qəbirdə həmçinin oxra parçaları və şaftalı çəyirdəyi tapılmışdır. Saxsı qablar şar gövdəli, alçaq

boğazlı, səthi naxışlı küpələr, qoşa qulplu bərni tipli qab və tək qulp bardaqla təmsil olunmuşdur (tablo-2,1-0). Bəzi küpələr şüyrəli naxışları, basma dairələri və göbələkvari çıxıntıları ilə Borsunlu kurqanı keramikasını xatırladır (11, səh. 224; 20, səh. 21, şəkil 3,4,5,6,7,8,9).

**K.X.Kuşnaryevanın qazdığı 2 və 4 saylı kurqanlar**. Həmin kurqanlar Xocalı kəndinin (köhnə, əsas Xocalı) qərbində, İlisu çayının sol sahillərində yerləşmiş yeddi kurqandan ibarət qrupa daxil olmuşdur. Kurqanlar kiçik ölçülü olub torpaq örtülüdür.

**2 saylı kurqanın** (14, səh. 377, şəkil 9) diametri 10 m, hündürlüyü 0,75 m olmuşdur. Bu tip başqa kurqanlarda olduğu kimi əsas torpaq örtük altında kiçik daş topası aşkar edilmişdir. Şərq-qərb istiqamətli kiçik ölçülü torpaq qəbirində (1,3 x 1 m) sağ yanı üstə, bükülü halda dəfn olunmuş insan skeleti qalıqları aşkar olunmuşdur. Qəbirin qərb hissəsində əldə hazırlanmış, kobud formalı üç saxsı qab tapılmışdır.

**4 saylı kurqan** (14, səh. 377-379) şimal-cənub istiqamətində uzunsov, yastılanmış torpaq örtüyünə malik olmuşdur. Hündürlüyü 1,4 m, diametri şimal-cənub istiqamətində 20 m, qərb-şərq oxu boyu 16 m-ə çatmışdır. Örtüyün 60 sm dərinliyində ətrafı bir cərgə daşla əhatələnmiş (kromlex) daş topası altında, materikdə, qərb-şərq istiqamətli torpaq qəbiri (2,3 x 1,46 x 1 m) aşkar edilmişdir. Vaxtilə qəbirin üstünü bağlamış ağac tirlər çökmüşdür. Qəbir talan edildiyi üçün dəfn adəti və avadanlığın düzülüş qaydası pozulmuşdur (tablo 1, 1,2). Burada təsadüf edilmiş insan sümükləri qalıqları və saxsı qab parçaları qəbirə səpələnmiş, dağınıq vəziyyətdə olmuşdur. Qərb divarı önündə salamat qalmış dörd saxsı qab götürülmüşdür. Həmin qablar qoşa qulplu bərnidən, tək qulp camdan və yastı şarvari küpələrdən ibarətdir. Küpələrdən birində qulp əvəzinə göbələkvari çıxıntı var.

Deyilənlərdən başqa bu tip abidələr cərgəsinə K.Kuşnaryevanın Ağdam-Xankəndi yolunun Xocalıdan keçən hissəsindəki kəsikdə, üç yerdə təmizlədiyi qəbirləri, habelə Xocalı çayının sahilindəki yarğanda yarı dağılmış kurqanı da daxil etmək olar:

**Xocalı çayının sağ hündür sahilində** 1/3 hissəsi qalmış kiçik torpaq kurqanı altında bükülü vəziyyətdə dəfn olunma qeydə alınmışdır (14, səh. 381-382). Onun ayaqları yanında 6 saxsı qab qoyulmuşdur. Qablar tək qulp dərin camdan, qara cilalı, tək qulplu bərnidən və kobud quruluşlu, səthi hislə örtülmüş küpədən ibarət olmuşdur. Həm kurqanın quruluşu, həm də saxsı qablar bu kurqanı I tip abidələrə yaxınlaşdırır.

**Ağdam-Xankəndi yolu çəkilərkən dağılmış abidələr** (14, səh. 381). Bu kurqanlar yolun kənarındakı kəsikdə qeydə alınmışlar. Cəmisi 7 yerdə dağılmış kurqan abidələri təmizlənmişdir; dördü I tip abidələr üçün (1, 2, 3, 5), biri e.ə. XII-XI əsrlər üçün (N7), başqası 3-cü tip abidələr üçün xarakterik materiallar vermişdir.

**1 saylı qəbr** üst səthindən 1,5 m dərinlikdə aşkar edilmiş torpaq qəbiri olmuşdur. Dəfn qaydası bərpa olunmamışdır. Qəbirdə şar gövdəli, geniş ağızlı küpə və əldə kobud hazırlanmış cam, nazik tunc lentdən burmalı boyunbağı, tunc üzüklər (3 ədəd), tuncdan kiçik düymələr (10 ədəd), tunc, əqiq və və pasta muncuqlar tapılmışdır. Keramikanın səthi hislə örtülmüşdür. 1 tip abidələrdən tapılmış keramika ilə oxşardır.

**2 saylı qəbir** 1,4 m dərinlikdə açılmışdır. Insan sümükləri ilə yanaşı burada heyvan sümüklərindən parçalar, habelə böyük ölçülü, səthi hislənmiş, geniş ağızlı küpə tapılmışdır.

**3 saylı torpaq qəbiri** 1 m dərinlikdə tapılmışdır. Qəbirdə insan sümükləri və tünd-boz rəngli, şarşəkilli gövdəsi, yastı düyməvari bəzəkli olan küpə əldə edilmişdir.

**5 saylı qəbir** 1,5 m dərinlikdə yerləşmişdir. Çox hissəsi dağılmış, yalnız tək qulp, uzun boğazlı tünd boz rəngli bardaq salamat qalmışdır. Səthi batıq paralel xətlər, basma dairələrdən və çərtmə xətlərdən çəkilmiş üçbucaqlarla naxışlanmışdır.

Xocalının I tip kiçik torpaq kurqanlarının materiallarının təhlilinə gəldikdə, qeyd etmək lazımdır ki, bir neçə kurqan istisna olmaqla bu qəbirlərdə avadanlıq ya çox az olmuş, ya da ümumiyyətlə olmamışdır (məs. 14, 16 saylı). Ən çox İ.Cəfərzadənin qazdığı kurqan, habelə 2 və 4 saylı İlisu kurqanları əsasında Xocalının ilk dövr abidələri haqqında təsəvvür mümkün olur. Arxeoloji bölgü ilə son vaxtlara qədər e.ə. XIII-XI əsrlərə (18, səh. 117) aid edilən bu kurqanların indi yeni materiallar əsasında dövrləşməsi dəqiqləşdirilmişdir. Biz bu tip kurqanları e.ə. XIV-XIII əsrlərə aid edirik (20, səh. 10-11). Kiçik torpaq kurqanların daha qədim olması, ümumiyyətlə xarici əlamətləri ilə Xocalı kurqanlarının dövrləşməsi vaxtilə akademik İ.Meşşaninov tərəfindən söylənilmişdir (11, səh. 221). Sadəcə olaraq sonrakı illərdə bu xronoloji bölgü rəqəmlərin dili ilə daha aydın ifadə olunmuşdur.

Arxeoloji materiallar içərisində diqqəti daha çox cəlb edən keramikadır. Qablar əsasən batıq şarvari, ağzının kənarı kobəli, alçaq boğazlı küpələrdən ibarətdir. Onlar həm 2 və 4 saylı İlisu, həm də 5 saylı İ. Cəfərzadə kurqanı materiallarına daxil olmuşdur. 2 və 4 saylı kurqan materiallarının səthi sayadır (yalnız bir küpədə üfüqi paralel xətlər var). Lakin 5 saylı kurqan materialları zəngin naxışlanması ilə fərqlənir. Qabların əsasən gövdədən yuxarı hissəsi və boğazı naxışlanmışdır. Naxışlar şüyrəli çarpaz xətlərdən (torvari), üçbucaqlar, üfüqi zolaqlar və basma dairələrdən ibarətdir. Qablar tünd-boz, bozumtul-qara rənglidir. Bu qabları fərqləndirən xüsusiyyətlərdən biri onların çiyin hissəsində "göbələkvari" çıxıntının olmasıdır. Xocalı-Gədəbəy mədəniyyətinin aparıcı ünsürlərindən olan bu əlamət sonrakı mərhələlərdə də davam etmişdir. Göbələkvari çıxıntılardan biri kiçik cam şəklində

olub səthində dairəvi basma naxış var. Xatırladaq ki, məhz axırıncı tip göbələkvari çıxıntısı olan küpəyə e.ə. XIV-XIII əsrlərə aid Böyük Borsunlu kurqanında təsadüf olunmuşdur. Bundan başqa qalan küpələr də forması (yastışarvari) və naxışlanması (konnelyur, şüyrəli, basma dairələr və s.) ilə Böyük Borsunlu kurqanı küpələrini xatırladır (22, səh. 5, şəkil 1,2,3,4 və s.).

Xocalının I tip torpaq kurqanlarındakı tək qulp bardaqlar 5 saylı kurqandan və Ağdam-Xankəndi yolunun kəsiyindəki 5 saylı qəbirdən tapılmışdır. Birincidə bardağın boğaz və çiyin hissəi, ikincidə isə gövdədən aşağı hissəsi üçbucaqlı, şaquli və üfüqi xətlərin kombinasiyasından ibarət naxışla bəzənmişdir. Qalan qablar qoşa qulplu, nisbətən geniş ağızlı çölmək və qoşa qulplu, səthi torvari naxışlı bərnilərdən ibarətdir (20, şəkil 3,4,5,6,7,8,9;14, şəkil 11, 13,14).

Arxeoloji materialların bir qismi tunc düymələr, kiçik üzüklər, sancaq, boyunbağı, pasta və əqiq muncuqlardan ibarətdir.

Tapıntılar içərisində dəvəgözü və çaxmaqdaşından hazırlanmış arxası oymalı- gəzli ox ucluqlarına İ.Cəfərzadənin qazdığı 5 saylı kurqanda rast gəlinmişdir.

Arxeoloji materialların tipoloji əlamətləri, xüsuilə keramika nümunələrinin morfoloji xüsusiyyətləri, Azərbaycanın digər bölgələrindən məlum olan analoji artefaktlarla müqayisəsi, Xocalının I tip abidələr qrupunu e.ə. XIV-XIII əsrlərə aid etməyə imkan verir.Təklif etdiyimiz bu xronoloji dövrləşmə dəfələrlə yeni əldə olunmuş faktlarla təsdiq olunmur.

**Ədəbiyyat**

1. ZE VBGAEU (Zeitscrift für Ethnologie. Verhandlüngen der Berliner Gesellschaft für Anthropologie und Urgesechichte), Berlin, 1894., p.213-241.
2. ZE VBGAEU, Berlin, 1896., p.78-115;172-187.
3. ZE VBGAEU, Berlin, 1898., p.416-454.
4. ОАК (Очеты Археологической Комиссии) за 1894 г., Спб., 1896., с.17-28.
5. ОАК за 1895 г., Спб, 1897., с.153-161.
6. ОАК за 1896 г., Спб, 1898., с.117-125.
7. ОАК за 1897 г., Спб, 1900., с.47-49;166-169.
8. Дело АК (Дело Археологической Комиссии, № 54/1894.,л.31-44.
9. Дело АК № 60/1895., л.30-47.
10. Ивановский А.А. По Закавказью. МАК, вып. VI, Москва, 1911., с.143-149.
11. Мещанинов И.И. Краткие сведения о работах археологической экспедиции в Нагорный Карабах и Нахичеванский край, снаряженной в 1926 г. Обществом изучения Азербайджана. Сообщ. ГАИМК, т.1, Ленинград, 1926., с.217-247.
12. Джафарзаде И.М. Ходжалинская экспедиция (земляной курган № 5). Изв. АзФАН, СССР, №2, 1941., с.15-26.

13. Гуммель Я.И. Отчеты по экспедициям 1939 г. Археологические разведки и раскопки по районам Азерб. ССР. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi arxivi, iş № 931., с.1-15.
14. Кушнарева К.Х. Археологические работы 1954 г., в окрестностях село Ходжалы. МИА, № 67, М.- Л. 1957., с.370-387.
15. Джафаров Г.Ф. Исследования в Ходжалах. АО в СССР за 1984 г., Москва 1986., с.480-481.
16. Александрович–Насыфи Дж. Перечень и краткая характеристика курганов главного курганного поля около С.Ходжалы. Изв. Азкомстарис. Баку, 1927, вып. 3., с.169-179.
17. Пассек Т., Латынин Б. Ходжалинский курган № 11. Отдельный оттиск. Изв. ООИА, 1926, №2., с.112-159.
18. Кушнарева К.Х. Ходжалинский могильник, ИФЖ АН Арм. ССР. Ереван, 1970, № 3., с.110-124.
19. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində. Bakı, Elm, 2000., 187 s.
20. Джафарзаде И.М. Ходжалинская экспедиция земляной курган № 5, Изв. Аз ФАН СССР, 1941, №2., с.15-26.
21. Гусейнова М.Г.Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа. Баку, Элм, 1990.,126 с.
22. Cəfərov H.F. Борсунлу–погребение племенного вождя. Баку, Элм, 1986., 12 с.

# COMPLEX OF ARCHAEOLOGİCAL MONUMENTS OF KHOJALİ: 1ST GROUP KURGANS

**Hidayat F.Jafarov**

## Summary

**Key words: Azerbaijan, Karabakh, Khojali, archeology, kurgans, stone boxes, ceramics, bronze, chronology.**

Khojali complex has an important place among the late Bronze and early Iron Age monuments of Azerbaijan and the South Caucasus. Here archaeological excavations have been carried out by E.Resler and A.Ivanovski in the 90s of XIX century. Firstly E.Resler has established the existence of the different types of (kurgans, mengirs, labyrinths, dolmens) archaeological monuments. In the following years these facts were specified with new evidences.

In general, hundreds of monuments have been recorded in Khojaly, archaeological excavations have been conducted in more than 40 of them (E.Resler, A.Ivanovski, I.Meshshaninov, I.Jafarzade, Y.Hummel, K.Kushnaryeva, H.Jafarov). The presented article gives information about the first group of monuments of Khojali which divided into 4 groups. This group belongs to BC XIV-XIII.

# АРХЕОЛОГИЧЕСКИЕ КОМПЛЕКСЫ ХОДЖАЛИНСКИХ ПАМЯТНИКОВ: КУРГАНЫ ПЕРВОЙ ГРУППЫ

**Гидаят Ф.Джафаров**

## Резюме

**Ключевые слова: Азербайджан, Гарабах, Ходжалы, археология, курганы, каменные ящики, керамика, бронза, хронология.**

Среди памятников Азербайджана и всего Южного Кавказа эпохи поздней бронзы и раннего железа ведущее место занимает Ходжалинский комплекс. Первые раскопки здесь были проведены Э.Реслером и А.Ивановским в 90-х гг. XIX в. Э.Реслер первым обратил внимание на насыщенность и разнотипность Ходжалинских памятников, выявил новые для древности Азербайджана такие типы сооружений, как лабиринтообразные строения, менгиры, дольменоподобные погребения, курганы и т.д. В дальнейшем эти сведения дополнились новыми наблюдениями и были внесены некоторые уточнения.

В общей сложности из сотни зафиксированных разнотипных (четыре типа) памятников, лишь более чем в сорока из них были проведены археологические раскопки (раскопки вели Э.Реслер, А.Ивановский, Я.Гуммель, К.Кушнарева, Г.Джафаров). В представленной статье речь идет о памятниках первой группы курганов, датируемые XIV-XIII вв. до н.э.


TABLO – 1
р. Ходжалычай
р. Каркарчай
р. Илис-су
в Даш-булаг
с. Холжалы
р. Ходжалинка
в Агдам
в Степанакерт
р. Каркарчай
0 50 100 150 200 м




Рис. 9. Сел. Пора-Гёз. Курган № 2.




Рис. 10. Сел. Пора-Гёз. Курган № 4.